## AQTA-nın əməkdaşlıq etdiyi qurumlar:

**Pakistan İslam Respublikasının Milli Qida Təhlükəsizliyi və Araşdırma Nazirliyi (Ministry of National Food Security & Research - MNFSR)** (www.mnfsr.gov.pk)
Qurum, ölkədə qida təhlükəsizliyinin təmin olunması və kənd təsərrüfatı məhsuldarlığının artırılması sahəsində əsas dövlət qurumudur. Nazirliyin əsas fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

- ölkəyə idxal olunan qida və kənd təsərrüfatı məhsullarına nəzarət və tənzimləmə;
- qida məhsullarının keyfiyyət standartlarına və istehsal proseslərinə nəzarət;
- qida əlavələri, konservantlar və digər maddələrlə bağlı mövcud qaydalara əməl olunmasının təmin edilməsi;
- müxtəlif bitkilər üçün toxumların sertifikatlaşdırılması və keyfiyyətə nəzarətin həyata keçirilməsi;
- heyvanlar və heyvan mənşəli məhsulların idxalı, ixracı və karantin nəzarətinin təşkili.